## DİLÇİLİK

*https://doi.org/10.30546/114578.2025.9.1027*

# SEYİD ƏZİM ŞİRVANİNİN MAARİFÇİLİK KONSEPSİYASI VƏ MİLLİ DİLİN İNKİŞAFI MƏSƏLƏSİ

**Könül Səmədova**
*filologiya elmləri doktoru, professor*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*http://ORCID.org/0000-0003-4061-9775*
*samedovakonul74@mail.ru*

**Xülasə**

XIX əsrin ikinci yarısı Azərbaycan ədəbi-mədəni həyatında maarifçilik ideyalarının geniş vüsət aldığı dövr kimi səciyyələnir. Bu mərhələdə ana dilinin inkişafı, xalq maarifinin yüksəldilməsi və milli özünüdərkin gücləndirilməsi məsələləri ədəbi mühitin aparıcı istiqamətlərindən birinə çevrilmişdir. Həmin dövrün görkəmli nümayəndələrindən biri də Seyid Əzim Şirvanidir. Şair və maarifçi kimi tanınan Seyid Əzim yalnız bədii yaradıcılığı ilə deyil, həm də dilə, ədəbi dilin inkişafına dair irəli sürdüyü fikirləri ilə Azərbaycan dilçilik tarixində mühüm yer tutur. Onun yaradıcılığında dilin sadələşdirilməsi, xalq danışıq üslubuna yaxınlaşdırılması və maarifçi ideyaların geniş kütlələrə çatdırılması əsas məqsəd olmuşdur. Seyid Əzim Şirvani bu yanaşması ilə Azərbaycan ədəbi dilinin milli zəmin üzərində formalaşmasına və sonrakı mərhələlərdə inkişaf istiqamətlərinin müəyyənləşməsinə ciddi təsir göstərmişdir.

**Açar sözlər:** maarifçilik, xalq dili, Seyid Əzim Şirvani, bədii üslub, dilçilik görüşləri.

# SEYID AZIM SHIRVANI’S ENLIGHTENMENT CONCEPT AND THE ISSUE OF NATIONAL LANGUAGE DEVELOPMENT

**Konul Samedova**
*Azerbaijan State Pedagogical University*

**Abstract**

The second half of the 19th century is characterized as a period when enlightenment ideas gained widespread prominence in the literary and cultural life of Azerbaijan. During this stage, the development of the mother tongue, the of public education, and the strengthening of national self-awareness became one of the leading directions of the literary environment. One of the prominent figures of this period was Seyid Azim Shirvani. Known as both a poet and an enlightener, Seyid Azim holds an important place in the history of Azerbaijani linguistics not only for his literary work but also for his ideas on language and the development of the literary language. In his creative work, the simplification of language, bringing it closer to the spoken vernacular, and conveying enlightenment ideas to the broader public were his main objectives. Through this approach, Seyid Azim Shirvani made a significant impact on the formation of the Azerbaijani literary language on a national basis and on defining its developmental directions in subsequent stages.

**Key words:** enlightenment, folk language, Seyid Azim Shirvani, literary style, linguistic views.

## ПРОСВЕТИТЕЛЬСКАЯ КОНЦЕПЦИЯ СЕЙИДА АЗИМА ШИРВАНИ И ПРОБЛЕМА РАЗВИТИЯ НАЦИОНАЛЬНОГО ЯЗЫКА

**Конуль Самедова**
*Азербайджанский государственный педагогический университет*

**Резюме**

Вторая половина XIX века характеризуется как период широкого распространения просветительских идей в литературно-культурной жизни Азербайджана. На этом этапе развитие родного языка, повышение народного просвещения и укрепление национального самосознания стали одними из ведущих направлений литературной среды. Одним из выдающихся представителей этого периода является Сейид Азим Ширвани. Как поэт и просветитель, Сейид Азим занимает важное место в истории азербайджанского языкознания не только своей художественной деятельностью, но и взглядами, выдвинутыми им относительно языка и развития литературного языка. В его творчестве основными целями были упрощение языка, приближение его к разговорной речи и донесение просветительских идей до широких слоёв населения. Таким образом, Сейид Азим Ширвани оказал значительное влияние на формирование

азербайджанского литературного языка на национальной основе и определил дальнейшие направления его развития.

**Ключевые слова:** просветительство, народный язык, Сейид Азим Ширвани, художественный стиль, лингвистические взгляды.

## Giriş/İntroduction

Seyid Əzimin dilçilik baxışlarının öyrənilməsi bir neçə amilə görə aktuallığını qorumaqdadır. Birincisi, onun əsərlərindəki dil ideyaları XIX əsr Azərbaycan maarifçiliyinin ideoloji əsaslarını əks etdirir. İkincisi, Şirvaninin ana dilinə münasibəti və sadə, aydın üslubu ədəbi dilin xalq dili ilə yaxınlaşdırılması prosesinə mühüm təsir göstərmişdir. Üçüncüsü isə bu baxışların müasir dilçilik elmi ilə müqayisəli təhlili Azərbaycan ədəbi dilinin inkişaf qanunauyğunluqlarını daha dərindən anlamağa imkan verir.

Seyid Əzim Şirvaninin yaşadığı dövr Azərbaycan ədəbiyyatında klassik ənənələrdən maarifçi realizmə keçid mərhələsi kimi xarakterizə olunur. Bu mərhələdə Mirzə Fətəli Axundzadə, Həsən bəy Zərdabi kimi ziyalıların təşəbbüsü ilə dilin sadələşdirilməsi, xalq üçün anlaşıqlı hala gətirilməsi məsələləri aktuallaşmışdı. Ədəbiyyatşünaslıqda qeyd olunur ki, həmin dövrün bir çox şairləri klassik şeir formalarını qorusa da, məzmun və üslubda yeniliklər edərək dili xalq kütlələrinə yaxınlaşdırmağa çalışırdılar. Seyid Əzim Şirvani də bu prosesi davam etdirən əsas simalardan biri idi. Onun şeirlərində ərəb və fars mənşəli sözlərin mövcudluğu ilə yanaşı, xalq danışıq dilinə xas ifadələrin, məişət və təbiət təsvirlərinin geniş işlənməsi bu xüsusiyyətin bariz nümunəsidir.

Şirvaninin ana dilinə münasibəti təkcə bədii yaradıcılıqda deyil, həm də maarifçi fəaliyyətində özünü göstərmişdir. O, mədrəsələrdə Azərbaycan türkcəsinin tədrisini təşviq etmiş, "Məclis" adlı məktəbdə şagirdlərə sadə və aydın dildə dərs deməyə çalışmışdır. Bu faktlar onun ana dilini maarifləndirmənin və milli oyanışın əsası kimi qəbul etdiyini təsdiq edir. *"Pedaqoji işdə çalışmaq şairi xalq həyatına daha da yaxınlaşdırır və onun konkret ehtiyacları ilə qarşılaşdırır. O, Azərbaycan məktəblərində şəriət və ana dilinin tədrisindən ötrü dərslik yaratmağa təşəbbüs göstərir"* [Şirvani, I c, 2005:8].

**Ədəbi dil və ana dili haqqında fikirləri.** Seyid Əzim Şirvaninin dilçilik baxışlarının əsas istiqamətlərindən biri ana dilinə münasibəti və ədəbi dilin inkişafı məsələləridir. XIX əsrin ikinci yarısında Azərbaycan ədəbi dilinin qarşısında duran əsas problemlərdən biri xalq dili ilə yazılı ədəbiyyat dili arasındakı ziddiyyətin aradan qaldırılması idi. Əsrlər boyu klassik şeir

ənənələrində üstünlük təşkil edən ərəb-fars tərkibli mürəkkəb ifadələr xalq üçün çətin anlaşılan ədəbi dil formalaşdırmışdı. Maarifçi ziyalılar, o cümlədən Seyid Əzim bu vəziyyəti tənqid etmiş və sadə, aydın dil prinsipini irəli sürmüşdülər.

Seyid Əzim yaradıcılığında ana dili milli kimliyin mühüm göstəricisi kimi qəbul olunur. O, maarifçilik ideyalarını yaymaq üçün xalqın gündəlik ünsiyyətinə yaxın olan dili seçmişdir. Onun fikrincə, dil yalnız ünsiyyət vasitəsi deyil, həm də insanın mənəvi kamilləşməsinin mühüm amilidir.

*Ədəbi dilin sadələşdirilməsi.* Seyid Əzim Şirvani yazılarında xalq danışıq dilinin ədəbi dilə daxil edilməsini təşviq etmişdir. Onun satirik və didaktik şeirlərində xalq ifadələri, atalar sözləri, deyimlər geniş yer tutur. Bu həm əsərlərin üslubunu xalq üçün daha anlaşıqlı etmiş, həm də Azərbaycan ədəbi dilinin milli zəmin üzərində möhkəmlənməsinə şərait yaratmışdır.

Şairin dilə yanaşmasında əsas məqamlardan biri də qəzəl və qəsidələrində belə ərəb-fars mənşəli ağır terminlərin məqsədyönlü istifadəsi və mümkün qədər yerli ifadələrlə əvəzlənməsi olmuşdur. Məsələn,

*Deme, Seyyid, ki şikəst eylədi peymanını yar,*
*Hiç bir yar olurmu ola peymanı dürüst?!* [Şirvani, I c, 2005:53]

Seyid Əzim Şirvaninin bu beyti onun dil sadəliyinə və xalq danışıq üslubuna yaxınlaşma meylini göstərir. Beyt həm klassik terminologiya ilə xalq üslubunun sintezini, həm də şairin sadə, anlaşıqlı emosional təsir gücü olan ifadə tərzini nümayiş etdirir.

**Maarifçilik və dil ideyalarının birliyi**. Seyid Əzim üçün ana dilinin inkişafı yalnız ədəbi məsələ deyildi, həm də maarifçilik ideyasının tərkib hissəsi idi. O, dilin xalq kütlələrinə başa düşülən olması ilə maarifin yayılmasını bir-biri ilə əlaqələndirirdi. Bu baxış onun müəllimlik fəaliyyətində də özünü göstərmişdir. *"S.Ə.Şirvaninin üsuli-cədid məktəbi Azərbaycanın məktəb tarixində ilk nümunəvi anadilli təhsil ocağı idi və təxminən 14 il fəaliyyət göstərmiş, mürtəce ruhanilərin təzyiqi və ağır maddi vəziyyət nəticəsində 1887-ci ildə bağlanmışdı"* [ŞDG, 2020:13].

*Leksik-semantik və üslubi müşahidələri.* Seyid Əzim Şirvaninin dilçilik baxışlarının mühüm tərəfi onun bədii yaradıcılığında müşahidə olunan leksik-semantik qatların müxtəlifliyi və üslubi rəngarəngliyidir. XIX əsrin ikinci yarısında Azərbaycan ədəbi dilində ərəb-fars mənşəli sözlərin intensiv istifadəsi ilə yanaşı, xalq danışıq dilinə xas olan elementlərin ədəbiyyata gətirilməsi yeni poetik üslub yaratmışdır. Şair bu iki istiqaməti sintez edərək, həm klassik

ənənəni qorumuş, həm də ədəbi dili sadələşdirməyə xidmət edən maarifçi prinsipləri gerçəkləşdirmişdir.

Seyid Əzim bir çox şeirində dil və milliyyət məsələsinə toxunmuşdur. Məsələn, "Qafqaz müsəlmanlarına xitab" adlı şeirində yazır:

*İndi Şirvanda açmışıq məktəb,*
*Dərsimiz rusi, türki, farsi, ərəb* [Şirvani, 2005, II c.].

O dövrdə rus dilinin öyrədilməsi dövlət işlərinin rusca aparılmasına görə idi. Ərəb və fars dillərinin öyrədilməsi dini səbəblərlə bağlı idi. Uşaqlara türk dilini öyrətmək, məktəbdə türk dilində tədris aparmaq isə XIX əsrə görə olduqca böyük uğur və cəsarətli addım idi. Bu məsələnin vacibliyini isə aşağıdakı "Üç dil" adlı şeirində vurğulayır.

*Biri vacib bizə bilmək vətəndə söylənən dildir,*
*Gərəkdir mətləbə biz eyləyək türkilə ünvanı* [Şirvani, 2005, III c.].

Bu misralar şairin ictimai tənqidi dili formalaşdırmaqla dilin funksional imkanlarını genişləndirdiyini göstərir. Şair burada yalnız sadə danışıq vasitəsi kimi türkcənin önəmini deyil, həm də ictimai fikrin ifadəsi, maarifçi ideyaların çatdırılması və milli özünüdərkin formalaşdırılması üçün türkcənin imkanlarını göstərir. Beləliklə, o, ictimai tənqidi poeziya vasitəsilə milli dili funksional baxımdan genişləndirir, onu yüksək ədəbi üslub səviyyəsinə qaldırır və yeni ideoloji məzmunlarla zənginləşdirir.

Seyid Əzim Şirvani yalnız XIX əsrin maarifçi ədəbiyyatının görkəmli nümayəndəsi deyil, həm də Azərbaycan dilçilik tarixində ədəbi dilin sadələşdirilməsi və milli zəmində inkişafı istiqamətində mühüm nəzəri fikirlər irəli sürmüş şəxsiyyətlərdən biridir. Onun dilə münasibəti bu gün də aktualdır və müasir dilçilikdə milli dilin inkişaf mərhələlərinin öyrənilməsi baxımından qiymətli material kimi qəbul olunur.

Seyid Əzim Şirvani təkcə nəzəri baxışları ilə deyil, həm də praktik fəaliyyəti ilə ana dilinin inkişafına xidmət etmişdir**.** O, dövrün mövcud ədəbi mühitində ərəb-fars sözlərinin çoxluğu və xalq üçün çətin anlaşılan dil mühitinə qarşı çıxaraq, sadə və aydın ifadə vasitələri ilə maarifçi ideyaları yaymağa çalışmışdır. Şairin ana dilində dərslik və hekayələr yazması, uşaqların tərbiyəsi və təlimində milli dilin əsas vasitə kimi istifadə olunmasının vacibliyini göstərir. Bu, həm də onun dilçilik baxışlarının əsasını təşkil edən milli zəmində ədəbi dil quruculuğu prinsipinin təzahürüdür. Firudin bəy Köçərli bu barədə belə yazır: *"...təlimü tədris üçün və ətfalın təhzibi-əxlaqına səbəb olan kitablar türk*

*lisanında bilmərrə yox idi. Bu qüsuru yox etmək üçün mərhum Seyid nəzmən və nəsrən türkcə xoşməzmun və ibrətamiz nəqlü hekayələr ana dilində tərtib edib öz şagirdlərinə oxudardı"...* [ŞDG, 2020:28]

Bu qiymətləndirmələr göstərir ki, Seyid Əzim Şirvani həm ədəbi dilin tarixi inkişaf mərhələsi baxımından, həm də maarifçilik ideologiyasının daşıyıcısı kimi müasir tədqiqatlarda mühüm mövqe tutur.

Bütün bunlarla yanaşı biz Seyid Əzim yaradıcılığına anadilli əruzun inkişafı baxımından da yüksək qiymət verməliyik. Tədqiqatlar göstərir ki, Şirvani anadilli poeziyasında əruzun 14 vəznindən istifadə etmişdir ki, bu da ədəbiyyatımızda bir ilkdir. *"Seyid Əzim Şirvaninin anadilli poeziyasında 14 janr formasında yazılmış 1172 şeirinin hamısı əruz vəznindədir. S.Ə.Şirvaninin Azərbaycan dilində olub, vəzn üzrə araşdırılan 1172 əsərinin təhlili zamanı Azərbaycan əruzunda işlədilən 3 bəhrdə - mütədarik, kamil, müqtəzəb bəhrlərində nümunəyə rast gəlinmədi"* [AƏŞPİY]. Digər bütün bəhrlərdə isə əsərləri mövcuddur. Bu baxımdan Şirvani ədəbiyyatımızda zirvədir.

**Müasir dilçiliklə əlaqəsi**. Müasir Azərbaycan dilçiliyində ədəbi dilin milli formalaşma mərhələləri araşdırılarkən Seyid Əzim Şirvaninin rolu xüsusi qeyd olunur. Bu dövrün dilində müşahidə olunan klassik üslubdan xalq danışıq üslubuna keçid, leksik tərkibdə milli elementlərin artması, dilin sadələşdirilməsi meyli bu gün də ədəbi dilin tarixi inkişafını öyrənmək üçün əsas göstəricilərdir.

Seyid Əzim Şirvaninin dilə yanaşması yalnız maarifçi dövrün ehtiyaclarına cavab verən bir fəaliyyət deyildi, həm də gələcək nəsillər üçün milli kimlik və mənəvi dəyərlərin qorunması baxımından strateji bir istiqamət müəyyən edirdi. Onun ana dili ilə bağlı ideyaları, məktəblərdə sadə və anlaşıqlı dildə tədrisin vacibliyi haqda fikirləri, müasir dövrdə tətbiq edilən prinsiplərlə üst-üstə düşür. Bu fakt Seyid Əzimin pedaqoji irsinin yalnız tarixi deyil, həm də praktiki əhəmiyyət daşıdığını sübut edir.

Müasir Azərbaycan dil siyasətində həyata keçirilən tədbirlər dövlət dilinin hüquqi təminatı, təhsil müəssisələrində ədəbi dil normalarının tədrisi, terminoloji bazanın milli prinsiplər üzərində yenilənməsi və kütləvi informasiya vasitələrində dilin işlənmə keyfiyyətinin artırılması Şirvaninin yüz ildən artıq əvvəl səsləndirdiyi fikirlərin sistemli şəkildə gerçəkləşməsi kimi dəyərləndirilə bilər. Bu mənada onun dil və maarifçilik konsepsiyası həm milli özünüdərkin möhkəmlənməsi, həm də qloballaşma şəraitində milli dəyərlərin qorunması üçün müasir dövrdə də aktual və elmi baxımdan faydalı istiqamət olaraq qalır.

**Nəticə/Conclusion**

Seyid Əzim Şirvaninin dilçilik baxışları XIX əsr Azərbaycan ədəbi mühitinin ideya-mədəni inkişafının mühüm göstəricisidir. O, klassik poeziya ənənəsini qorumaqla yanaşı, maarifçi ideyalar əsasında ədəbi dilin xalq dilinə yaxınlaşdırılması, sadə və anlaşıqlı ifadələrin genişləndirilməsi kimi prinsipləri irəli sürmüşdür. Şairin ana dilinə bağlılığı yaradıcılığının əsas xəttini təşkil edir; o, dilin tərbiyəvi və maarifləndirici funksiyasını ön plana çəkərək, xalqın mədəni səviyyəsini yüksəltməyi hədəfləmişdir. Onun əsərlərində xalq leksikası və frazeoloji ifadələrdən istifadə ədəbi dilin milli zəmin üzərində möhkəmlənməsinə xidmət etmiş, ərəb-fars mənşəli sözlərin isə məqsədli işlədilməsi poetik harmoniyanı təmin etmişdir. Bu cəhətlər Seyid Əzimin yaradıcılığını XIX əsr dilçilik tarixində keçid mərhələsi kimi səciyyələndirməyə əsas verir. Müasir dilçilik baxımından onun "sadə və aydın dil" prinsipi bu gün də aktuallığını qoruyur və Azərbaycan dil siyasətinin əsas istiqamətlərindən biri kimi dəyərləndirilir.

## ƏDƏBİYYAT/REFERENCES

1. Şirvani, S.Ə. (2005). Seçilmiş əsərləri. I cild. Tərtib edəni: S.Rüstəmov, − Bakı: "Avrasiya press". − 288 s.
2. Şirvani, S.Ə. (2005). Seçilmiş əsərləri. III cild. Tərtib edəni: S.Rüstəmov. – Bakı: "Avrasiya press". − 400 s.
3. Şirvani S.Ə. (2005). Seçilmiş əsərləri. II cild. Tərtib edəni: S.Rüstəmov, − Bakı: "Avrasiya press". − 384 s.
4. Kərimova, F.B. (2021). Seyid Əzim Şirvaninin ictimai-siyasi və fəlsəfi görüşləri. Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. − Bakı, 24 s.
5. Şamaxıdan doğan günəş – Seyid Əzim Şirvani (2020). tərt.ed. A.Əliyeva. − Bakı: F.Köçərli ad.Respublika Uşaq Kitabxanası. − 62 s.
6. İmamquluoğlu, E. (2017). Seyid Əzim Şirvani nəzərində dilimiz və milliyətimiz. https://tarixiarasdirmalar.wordpress.com/2017/05/08/sirvani-turkler/
7. Anadilli əruz vəznli şeirimizin poetik inkişaf yolu https://edebiyyat qazeti.az/news/sience/9334-anadilli-eruzveznli-seirimizin-poetik-inkisaf-yolu

**Məqalə tarixçəsi**
*Daxil olub* 05.06.2025
*Qəbul edilib* 28.06.2025
*Nəşrə tövsiyə edib* *Mahirə Hüseynova*
*filologiya elmləri doktoru, professor*